**UOT 332.38**

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN KƏND TƏSƏRRÜFATININ BƏRPASININ AZƏRBAYCANIN AQRAR İQTİSADİYYATINA TƏSİRİ

**Asiman MANSIRLI** *

Məqalə redaksiyaya daxil olmuşdur: 5 iyun 2023; çapa qəbul edilmişdir: 24 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 5th of June, 2023; accepted: 24th of June, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər**: *işğaldan azad olunmuş ərazilər, ərzaq təhlükəsizliyi, özünü təmin ettmə səviyyəsi, aqrar sektor, kənd təsərrüfatını bərpası*

## Giriş

Hazırda ölkəmiz üçün ən əhəmiyyətli məsələlərdən biri 30 ildən artıq müddətdə işğal altında qalmış və 27 sentyabr 2020-ci ildə müzəffər ordumuz tərəfindən işğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin həyata keçirilməsidir. Bunun əsas məqsədlərindən biri erməni təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş 1 milyona yaxın vətəndaşlarımızın öz evlərinə qayıtmalarını təmin etməkdir. Həmçinin bu ərazilərdə dayanıqlı məskunlaşma və layiqli həyatın dayanıqlılığının təmin edilməsi habelə səmərəli fəaliyyətin və rifahın davamlı artmasını təhlükəsiz yaşayışın dəstəklənməsidir.

Prezident cənab İlham Əliyevin 2020-ci ilin yekunlarında təşkil olunan müşavirəsində də bir sıra məsələlərə toxunmuşdur – "Bizim planızım böyükdür. Müharibə cəmi iki aya yaxındır başa çatıb. Lakin görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlayıb və bu onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz demişdik ki torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik" (5). Bu məqsədlərə nail olunması üçün "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır. Belə ki, işğaldan azad olunmuş ərazilərdə bütün sahələrdə bərpa və quruculuq işlərinin aparılması, humanitar təşkilati, sosial iqtisadi və digər təxirə salınmaz məsələlərin həlli ön plana çıxmış, ölkə strategiyasında prioritet istiqamət kimi müəyyən olunmuş və strateji hədəflər müəyyən olunmuşdur.

Qarabağ bütövlükdə Qafqazın ən zəngin fitocoğrafi ərazilərindən biridir. Təbii sərvətləri ilə yanaşı flora və bitkiçilik kənd təsərrüfatı ehtiyatlarının zənginliyi ilə də seçilir. Geniş kənd təsərrüfatı potensialının olması bu ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi məsələsini ön plana çıxarır. Lakin mənfur düşmənin dağıdıcı fəaliyyəti nəticəsində işğal altında olan torpaqlarımızda yerli infrastruktur dağıdılmış, torpaqlar deqradasiyaya uğramış və su ehtiyatları çirkləndirilmişdir. Bunlardan əlavə, bu ərazilərdə torpaqların keyfiyyəti, yararlılıq xüsusiyyəti, su ehtiyatları və digər məsələlər barədə hələlik geniş məlumatlar yoxdur. Bu baxımdan, bu istiqamətdə müvafiq araşdırılmaların aparılması və bərpa istiqamətlərinin müəyyən olunması vacib məsələlərdən biridir.

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı üzrə dövlət başçısı tərəfindən müəyyən tapşırıqlar verilmişdir: "Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır və hökumət, Kənd Təsərrüfatı Nazirliyi,

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* mandmc768@gmail.com

İqtisadiyyat Nazirliyi bəri başdan prioritetlər seçməlidir. İlk növbədə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün hansı məhsullar əkilməlidir? Azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı var" (5).

Azərbaycanda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan bərpa məsələlərini müəyyən istiqamətlər üzrə qruplaşdırılması mümkündür:

1.Torpaq və su ehtiyatlarının bərpası və səmərəli istifadə üzrə planlamanın aparılması və torpaq islahatlarının həyata keçirilməsi.

2.heyvandarlıq fermalarının qurulması.

3.toxum, gübrə və pestisidlərlə təchizat bazasının yaradılması.

4.Aqrotexniki xidmətlər bazarının yaradılması.

5.Istehsal vasitələrinin təminin məhsulların tədarükü çatdırılması və ticarəti üzrə infrastrukturunun yaradılması.

6.Aqro-emal müəssisələrinin yaradılması.

7.Təhsil müəssisələrinin yaradılması və Kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması.

8. Informasiya-məsləhət xidmətinin təşkili.

9.dövlət dəstəyinin və dövlət özəl əməkdaşlığının kooperasiyaların yaradılması.

**Qarabağın kənd təsərrüfatının proqnozlaşdırılan potensialı**

Erməni təcavüzü nəticəsində Azərbaycanın 20% və ya 1670 min hektar ərazisi işğal edilmişdir. Bu torpaqların 41%i, yəni 680 min hektarı kənd təsərrüfatına yararlı torpaqlardır. Respublikamızın torpaq örtüyünün qiymətləndirilməsi üzrə tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, işğal altında olan ərazilərin torpaqlarının böyük bir hissəsi 72%-i 1. Və 2. Qrup yüksək keyfiyyətli torpaqlardır. Bu torpaqların 38% i kənd təsərrüfatında çoxillik əkmələr üçün, 10%-i şəxsi bağ təsərrüfatları üçün, 52%-i isə otlaqlar üçün istifadə oluna bilər.

Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 1980-ci illərdə bölgədə 139.8 min hektar əkilmiş sahə mövcud olub. Əkinlərin strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil edib: əkilmiş sahənin 55%-i taxıl məhsullarının, 35%-i üzümlüklərin payına düşüb (3).

**Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, ha**

| | Taxıl | Pambıq | Tütün | Kartof, tərəvəz, bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm | Cəmi sahə |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 48,500 | - | - | 2,100 | 400 | 1,700 | 2,300 | **55,000** |
| Ağdam* | 28,862 | 4,601 | - | 9,816 | 16,909 | 2,565 | 500 | **63,253** |
| Cəbrayıl | 10,400 | - | - | 300 | 7,300 | 800 | 1,200 | **20,000** |
| Füzuli* | 50,465 | 1,300 | - | 1,769 | 12,579 | 2,679 | 761 | **69,553** |
| Kəlbəcər | 900 | - | 200 | 200 | - | 500 | - | **1,800** |
| Qubadlı | 6,300 | - | 400 | 400 | 1,000 | 2,500 | 400 | **11,000** |
| Laçın | 2,300 | - | - | 200 | 1,000 | 500 | - | **4,000** |
| Zəngilan | 1,900 | - | 300 | 300 | 2,500 | 2,200 | 1,000 | **8,200** |
| **Cəmi sahə** | 149,627 | 5,901 | 900 | 15,085 | 41,688 | 13,443 | 6,161 | **232,805** |
| ***Ölkə üzrə cəmi sahəyə nisbəti, %*** | *12.8* | *5.8* | *22.5* | *9.6* | *10.6* | *6.0* | *27.9* | ***11.1*** |

**Mənbə**: *Aqrar Tədqiqatlar Mərkəzi*

Azad olunmuş ərazilərdə geniş su ehtiyatları mövcuddur. Belə ki, bu ərazilərin dağlıq relyefə malik, olması mülayim iqlim qurşağının mövcudluğu və çay şəbəkəsinin sıxlığı bu ərazilərdə su ehtiyatlarının geniş olmasına səbəb olmuşdur. Kənd təsərrüfatına yararlı torpaqların, demək olar ki, 50%-i suvarıla bilən torpaqlardır. Bu ərazilərə də ümumi həcmi 670 milyon kumbetrə bərabər 5 su anbarı, 26 suvarma sistemi, 1200 kilometrlik irriqasiya infrastrukturu, 62 su nasosu və digər sulama sistemləri və qurğuları mövcud idi. Lakin erməni təcavüzçülərinin dağıdıcı fəaliyyəti nəticəsində bu ehtiyatlar dağıdılmış və yararsız hala salınmışdır.

İşğaldan azad olmuş ərazilərin iqliminin müxtəlifliyinə və mülayimliyinə görə də digər regionlardan seçilir. "Kiçik Qafqaz dağ sistemi özünün iqlim şəraitinin müxtəlifliyi ilə seçilir və öz növbəsində respublikanın düzən ərazilərinin iqliminə böyük təsir göstərir. Kiçik Qafqaz dağlarının 300-400 m hündürlüyə qədər olan əraziləri yayı isti, qışı isə mülayim keçir. İsti ayların (iyul, avqust) orta temperaturu 24°-26C°-ə arasında tərəddüd edir, maksimum temperatur 35-37C°-ə olur. Ən soyuq ayın (yanvar) orta temperaturu 1,0°-3,9C°-yə, mütləq minimum temperatur mənfi 15-25C°-yə bərabərdir. Kiçik Qafqazın dağətəyi ərazilərində ilkin şaxtalara noyabr ayının üçüncü ongünlüyündə, son şaxtalara isə mart ayının ortalarında təsadüf olunur" (4).

Hazırda ölkə üzrə kənd təsərrüfatı üzrə faktiki inkişaf dinamikasına və dövlətin həyata keçirdiyi inkişaf strategiyasına əsasən deyə bilərik ki, bu bölgələrin istehsal paylarının əvvəlki göstəricilərə nisbətdə daha da yüksələcəyi gözlənilir. Bu ərazilərdə ənənəvi sahələrin bərpası ilə yanaşı yeni kənd təsərrüfatı məhsullarının – kartof, tərəvəz-bostan və yem bitkilərinin əkinlərinin genişləndirilməsi istiqamətində də işlər görüləcəkdir. Yüksək əlavə dəyər yaratması, emal sənayesi üçün xammal təminatı və ixrac imkanları perspektivi baxımından həmin ərazilərdə meyvəçiliyin inkişafına da xüsusi diqqət yetiriləcəyi gözlənilir.

1980-cı illərin statistik məlumatları əsasında qeyd edə bilərik ki, Qarabağ və ətraf rayonlar ölkə üzrə ümumi taxıl istehsalının 14%-nə, tütün istehsalının 8%-nə, bostan bitkiləri istehsalının 3.5%-nə, pambıq istehsalının 3.4%-nə və üzüm istehsalının 25.5% -ə malik idi.

**Perspektivdə bitkiçilik məhsullarının istehsal proqnozu (min ton)**

| | Taxıl | Pambıq | Tütün | Kartof | Tərəvəz | Bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | **155.7** | **-** | **-** | **20.3** | **12.3** | **4.2** | **17.5** | **12.1** | **24.1** |
| Ağdam* | 101.9 | 13.2 | - | 11.9 | 183.2 | 6.1 | 172.1 | 17.4 | 5.6 |
| Cəbrayıl | 33.4 | - | - | 0.3 | 3.5 | 1.7 | 68.4 | 5.7 | 12.6 |
| Füzuli* | 158.9 | 3.1 | - | 4.4 | 12.8 | 8.4 | 105.6 | 15.6 | 7.2 |
| Kəlbəcər | 2.9 | - | 0.4 | 1.7 | 1.8 | - | 24.9 | 3.6 | - |
| Qubadlı | 20.2 | - | 0.8 | 3.0 | 2.6 | 1.5 | 11.4 | 17.8 | 4.2 |
| Laçın | 7.4 | - | - | 1.7 | 1.4 | 0.4 | 24.8 | 3.6 | - |
| Zəngilan | 6.1 | - | 0.6 | 1.7 | 2.6 | 1.0 | 24.1 | 15.6 | 10.5 |
| **Cəmi istehsal** | **486.5** | **16.3** | **1.7** | **45.1** | **220.3** | **23.3** | **448.8** | **91.2** | **64.2** |
| ***Ölkə üzrə cəmi istehsala nisbəti, %*** | ***12.6*** | ***5.4*** | ***22.3*** | ***4.3*** | ***12.1*** | ***5.0*** | ***8.8*** | ***7.7*** | ***24.3*** |

**Mənbə**: *Aqrar Tədqiqatlar Mərkəzi*

İşğaldan azad olunmuş ərazilərdə bitkiçilik sahəsində ənənəvi və perspektiv sahələrin bərpası və inkişafı ilə yanaşı regionda heyvandarlıq sahəsinin inkişafına da xüsusi

diqqət yetirilir. Bunun başlıca səbəbi bu regionda heyvandarlıq sahəsinin inkişafı üçün geniş təbii amillərin – iqlim və relyef xüsusiyyətlərinin əlverişli olması, otlaq və yaylaqların üstünlük təşkil etməsi və bu sahələrin regionda ənənəvi sahələrdən biri olmasıdır. ”Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, həmin bölgədə 1980-ci illərdə 321 min baş iribuynuzlu heyvan və 1.1 milyon baş xırdabuynuzlu heyvan mövcud olmuşdur ki, bu da ölkənin ümumi heyvandarlıq sahəsində iribuynuzlu heyvan sayına nisbəti 16%, xırda buynuzlu heyvan sayına nisbəti isə 19.5% olmuşdur” (1). Perspektiv dövrdə bu sahənin yenidən bərpa edilməsi və innovasiyaların tətbiqi ilə daha da inkişaf etdirilməsi imkanları genişdir. Müvafiq dövrdə yenidən bərpa ilə bu sahədə iribuynuzlu heyvanların sayının 430 minə, xırdabuynuzlu heyvanların sayının isə 1.6 milyona çatdırılması və bu sayın daha da artırılması mümkündür.

**Heyvanların baş sayı, min baş**

| | **1980-ci illər** | | | **Perspektiv dövr** | | |
|---|---|---|---|---|---|---|
| | **İribuynuzlu heyvanlar - cəmi** | *ondan inək və camışlar* | **Xırdabuynuzlu heyvanlar - cəmi** | **İribuynuzlu heyvanlar - cəmi** | *ondan inək və camışlar* | **Xırdabuynuzlu heyvanlar - cəmi** |
| **Qarabağ** | **95.6** | ***30.7*** | **264.3** | **127.9** | **41.0** | **376.6** |
| Ağdam | 44.4 | *16.4* | 191.8 | 59.4 | 22.0 | 273.2 |
| Cəbrayıl | 26.4 | *8.9* | 114.2 | 35.3 | 11.8 | 162.7 |
| Füzuli | 37.8 | *13.4* | 149.0 | 50.5 | 18.0 | 212.3 |
| Kəlbəcər | 31.9 | *11.0* | 97.4 | 42.6 | 14.6 | 155.3 |
| Qubadlı | 22.8 | *8.3* | 30.6 | 30.5 | 11.1 | 43.6 |
| Laçın | 43.0 | *14.8* | 224.8 | 57.5 | 19.8 | 320.3 |
| Zəngilan | 19.1 | *6.8* | 34.6 | 25.6 | 9.1 | 49.2 |
| **Cəmi heyvan sayı** | **321.0** | ***110.3*** | **1,106.7** | **429.3** | **147.4** | **1,593.2** |
| ***Ölkə üzrə cəmi heyvan sayına nisbəti, %*** | ***16.2*** | ***14.8*** | ***19.3*** | ***14.7*** | ***10.9*** | ***17.5*** |

***Mənbə****: Dövlət Statistika Komitəsi, Aqrar Tədqiqatlar Mərkəzi*

İşğaldan azad edilmiş ərazilərdə heyvandarlıq sahəsinin bərpası və inkişaf etdirilməsi ölkənin heyvandarlıq məhsulları-ət, süd, yumurta və digər məhsullar ilə özünü təminatı baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir. 1980-cı il məlumatlarına əsasən regionda istehsal olunan heyvandarlıq məhsullarının ölkənin ümumi istehsalında nisbəti ət üzrə 14.9%, süd üzrə 15.4%, yumurta üzrə 8.8% olmuşdur. Perspektiv dövrdə regionda təqribən 45 min ton ət və 240 min ton süd istehsal olunacağı proqnozlaşdırılır. Bu da ölkənin heyvandarlıq məhsulları ilə özünü təminetmə səviyyəsinin yüksəldilməsi və idxalın əvəz edilməsi baxımından regionun əhəmiyyətini bir daha göstərir.

**Əsas heyvandarlıq məhsullarının istehsalı, min ton**

| | 1980-ci illər | | | Perspektiv dövr | | |
|---|---|---|---|---|---|---|
| | Ət | Süd | Yumurta (mln. ədəd) | Ət | Süd | Yumurta (mln. ədəd) |
| **Qarabağ** | **10.9** | **53.9** | **31.7** | **17.9** | **66.1** | **51.2** |
| Ağdam | 3.8 | 24.4 | 19.2 | 6.3 | 42.5 | 31.0 |
| Cəbrayıl | 2.3 | 14.0 | 11.4 | 3.7 | 21.0 | 18.4 |
| Füzuli | 2.8 | 20.0 | 11.8 | 4.6 | 31.2 | 19.0 |
| Kəlbəcər | 2.0 | 16.3 | 8.1 | 3.3 | 20.9 | 13.1 |
| Qubadlı | 1.3 | 12.1 | 4.4 | 2.2 | 18.3 | 7.1 |
| Laçın | 3.3 | 13.9 | 4.1 | 5.4 | 23.9 | 6.7 |
| Zəngilan | 1.1 | 9.2 | 3.6 | 1.9 | 14.3 | 5.8 |
| **Cəmi istehsal** | **27.5** | **163.8** | **94.3** | **45.3** | **238.2** | **152.3** |
| ***Ölkə üzrə cəmi istehsala nisbəti, %*** | ***14.9*** | ***15.4*** | ***8.8*** | ***12.2*** | ***10.5*** | ***7.9*** |

***Mənbə***: *Dövlət Statistika Komitəsi, Aqrar Tədqiqatlar Mərkəzi*

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahələrinin bərpa edilməsi ilə perspektiv üzrə əkin sahələrinin ölkə üzrə cəmi sahəyə nisbət ifadəsiylə-taxıl ərazilərinin 12.9-ə, pambıq sahələrinin 5.8%, tütün sahəsinin 22.4%, kartof tərəvəz bostan məhsulları əkin sahələrinin 9.6%, yem bitkilərinin 10.6%, meyvə və giləmeyvə sahələrinin 6%, üzüm sahələrinin 27.9% olacağına, müvafiq istehsal həcminin isə ümumi göstərici üzrə nisbət ifadəsiylə taxıl 13.9%, pambıq 3.4%, tütün 8.1%, kartof 1.8%, tərəvəz 1.1%, meyvə və giləmeyvə 0.4%, üzümün isə 25.5% olacağı gözlənilir. Heyvandarlıq sahəsi üzrə isə bu göstəricilər iribuynuzlu heyvan sayı 14.7%, xırdabuynuzlu heyvan sayı 17.5%-lik paya sahib olacağı gözlənilir.

İşğaldan azad olunmuş ərazilərin kənd təsərrüfatı potensiallarına və 1980-cı illər statistik məlumatlarına dayanaraq deyə bilərik ki regionda həyata keçiriləcək bərpa işləri ölkənin aqrar sektorunun ÜDM-də və ixracda xüsusi çəkisinin artmasına, idxalın əvəz edilməsinə və ərzaq məhsulları ilə özünü təmin etmə səviyyəsinin yüksəldilməsinə böyük töhfə verəcəkdir. Perspektiv dövr üzrə proqnozlaşdırılan istehsal həcmlərinə nail olunması ilkin dövrlərdə ölkənin ümumi aqrar sektorunun 11% ətrafında böyüməsinə, irəliləyən dövrlərdə innovasiyaların tətbiqi ilə daha da artmasına gətirib çıxaracaqdır.

**Nəticə**

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, işğaldan azad olunmuş ərazilər geniş kənd təsərrüfatı potensialına malikdir. Bu ərazilərdə kənd təsərrüfatının bərpası ölkədə ərzaq təhlükəsizliyi indeksinin yüksəlməsinə, ölkənin kənd təsərrüfatı məhsullarının ixracda payının artmasına, yeni iş yerlərini aşılmasına və işğaldan azad olunmuş ərazilərdə əhalinin məşğulluğuna və məskunlaşmasına – sosial-iqtisadi rifahın yaxşılaşdırılmasına böyük qatqı göstərəcəkdir.

Qarabağın kənd təsərrüfatının bərpası Azərbaycanın ərzaq təhlükəsizliyi İndeksinin yüksəlməsinə səbəb olacaqdır. Bu da ölkənin ərzaq təhlükəsizliyi səviyyəsinin artmasına və ərzaq məhsullarının çeşidliliyinin genişlənməsinə gətirib çıxaracaqdır. Və həmçinin, Qarabağda kənd təsərrüfatının bərpası Azərbaycanın UDM-sinin artmasına səbəb olacaqdır. Bu da ölkənin iqtisadi artımına, istehsalatın diversifikasiyasına, xarici ticarət balansının yaxşılaşmasına və istihdam imkanlarının genişlənməsinə gətirib çıxaracaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət Statistika Komitəsi (http://stat.gov.az)
2. "işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması" haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 24.11.2020 (https://mincom.gov.az/az/view/news/1065/prezident-ilham-eliyev-ishgaldan-azad-edilmish-erazilerde-meselelerin-merkezleshdirilmish-qaydada-helli-ile-bagli)
3. Müzəffərli N., İsmayılov E. Azərbaycan post-konflikt ərazilərinin bərpası. Bakı: Qafqaz nəşriyyat, 2020.
4. Vəliyev A.H. Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri. Bakı: Avropa, 2019.
5. Respublika qəzeti. Bakı, 2020, oktyabr-noyabr. Prezident İlham Əliyevin müsahibəsi.



***Резюме***

***Мансирли Асиман***

***Влияние восстановления сельского хозяйства на освобожденных территориях на аграрную экономику Азербайджана***

Освобожденные от оккупации территории обладают широкими сельскохозяйственными возможностями и богатыми природными ресурсами. Путем восстановления производства в этих сферах планируется добиться повышения роли аграрного сектора в экономике страны в Азербайджане, повышения уровня самообеспечения продуктами питания, увеличения доли экспорта сельскохозяйственной продукции. Продукты Эффект прогнозируется. Кроме того, планируется повысить эффективность производства за счет внедрения новых инноваций в этих областях и создания новых производственных площадей в дополнение к традиционным производственным площадям.

С восстановлением сельскохозяйственных угодий на территориях, освобожденных от оккупации, в перспективе соотношения к общей площади страны 12,9 % зерновых площадей, 5,8 % хлопковых площадей, 22,4 % табачных площадей, 9,6 % кормовых культур, 10,6 % плодово-ягодных площадей, 6 % площадей винограда Ожидается, что объем производства, соответствующий 27,9 %, составит зерно 13,9 %, хлопок 3,4 %, табак 8,1 %, картофель 1,8%, овощи 1,1%, фрукты и ягоды 0,4%, виноград 25,5%. В сфере животноводства на эти показатели ожидается приход 14,7% крупного рогатого скота и 17,5% мелких животных. При таком прогнозируемом росте производства можно будет повысить уровень продовольственной безопасности страны и расширить экспортный потенциал сельхозпродукции, кроме того, при возобновлении производства в этих сферах приведет к увеличению уровень занятости в стране и создание новых рабочих мест и деловой активности.

Однако в результате армянской агрессии деградация земель и разрушение местной инфраструктуры, неэффективная эксплуатация природных ресурсов, расчистка заминированных территорий и другие подобные вопросы требуют длительного времени, обширных исследований и финансовых ресурсов. Необходимо реализовать системные государственные программы в направлении восстановления этих территорий.


***Ключевые слова**: освобожденные территории, продовольственная безопасность, уровень самообеспечения, аграрный сектор, восстановление сельского хозяйства*


***Summary***

***Mansirli Asiman***

***The İmpact of the Restoration of Agriculture in the Liberated Territories on the Agrarian Economy of Azerbaijan***

The territories freed from occupation have wide agricultural opportunities and rich natural resources. With the restoration of production in these areas, it is planned to achieve an increase in the role of the agricultural sector in the country's economy in Azerbaijan, an increase in the level of self-sufficiency with food products, and an increase in the export share of agricultural products. Effect is predicted. In addition, it is planned to increase the efficiency of production by introducing new

innovations in these areas and to create new production areas in addition to traditional production areas.

With the restoration of agricultural areas in the territories freed from occupation, in the perspective of the ratio to the total area of the country, 12.9% of the grain areas are 5.8% of the cotton areas, 22.4% of the tobacco areas, 9.6% of the forage crops, 10.6% of the fruit and berry areas, and 6% of the grape areas. It is expected that the production volume corresponding to 27.9% will be grain 13.9%, cotton 3.4%, tobacco 8.1%, potatoes 1.8%, vegetables 1.1%, fruits and berries 0.4%, grapes 25.5%. In the area of animal husbandry, these indicators are expected to have a share of 14.7% of cattle and 17.5% of small animals. With this projected increase in production, it will be possible to increase the level of food security in the country and expand the export potential of agricultural products. In addition, with the resumption of production in these areas, it will lead to an increase in the level of employment in the country and the creation of new jobs and business activities.

However, as a result of the Armenian aggression, the degradation of the land and the destruction of the local infrastructure, the inefficient exploitation of natural resources, the clearing of mined areas and other such issues require a long time, extensive research and financial resources. It is necessary to implement systematic state programs in the direction of the restoration of these areas.

***Key words:*** *liberated territories, food security, level of self-sufficiency, agrarian sector, agricultural restoration*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.